# VERGİ VƏ HÜQUQA AİD YENİLİKLƏR



Aprel 2011

### MƏCBURİ AUDİTLƏ BAĞLI QANUNVERİCİLİKDƏ DƏYİŞİKLİKLƏR

“Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə dəyişiklik və əlavələr edilməsi barədə Azərbaycan Respublikasının Qanununa əsasən, öz maliyyə hesabatlarını dərc etdirməli olan təsərrüfat subyektləri üçün (*ictimai əhəmiyyətli qurumlar və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını hazırlayan kommersiya təşkilatları, səhmdar cəmiyyətlər və s.*), habelə qanunla audit olunmalı qurumlar üçün *(məhdud məsuliyyətli cəmiyyətlər, sığorta təşkilatları və cəmiyyətləri, investisiya fondları, qiymətli kağızların emitentləri, təbii inhisar fəaliyyətinin subyektləri və s.)* audit məcburi, digər hallarda isə könüllüdür.

Eyni zamanda dəyişikliyə əsasən İnzibati Xətalar Məcəlləsinə məcburi auditdən yayınmaya görə cərimə məbləğini müəyyən edən maddə əlavə edilir. Bu maddəyə əsasən, qanunla nəzərdə tutulmuş hallarda həyata keçirilməli olan məcburi auditdən yayınmaya görə vəzifəli şəxslər üç yüz manatdan altı yüz manata qədər, hüquqi şəxslər min beş yüz manatdan iki min beş yüz manatadək miqdarda cərimə ediləcək.

### YENİ BƏYANNAMƏ, ARAYIŞ VƏ HESABAT FORMALARI

Vergilər nazirinin əmriylə yeni gəlir, mənfəət və əmlak vergilərinin bəyannamələri və onların əlavələri, dövlət rüsumu tutulması haqqında hesabat və vergi öhdəliyinin yaranmaması haqqında arayış formaları və onların doldurulma qaydaları təsdiq edilmişdir. Yeni bəyannamələr əsasən İxrac məqsədli neft-qaz fəaliyyətinə dair xüsusi iqtisadi rejimin tətbiqi ilə bağlı bəzi dəyişiklikləri əhatə edir.

### VERGİ ÖDƏYİCİLƏRİNİN UÇOTU İDARƏSİ

Vergilər Nazirliyi Bakı şəhər Vergilər Departamentinin tərkibində Vergi Ödəyicilərinin Uçotu İdarəsi yaradılmışdır. İdarə qeyri-kommersiya qurumlarının, hüquqi şəxslərin filiallarının (bölmələrinin), fiziki şəxslərin vergi ödəyicisi kimi uçota alınması və uçotdan çıxarılması, kommersiya qurumlarının dövlət reyestri məlumatlarına aid olmayan vergi uçotu məlumatlarında dəyişikliklərin aparılması, bank idarəsində hesab açılması məqsədilə şəhadətnamə-dublikatın verilməsi, əlavə dəyər vergisi ödəyicisi kimi qeydiyyata alınmalı şəxslərin uçota alınması və uçotdan çıxarılması və digər xidmətlər göstərəcəkdir.

**Həsən Haqverdiyev**
**İdarəedici Partnyor**
**E-mail: hasan.hagverdiyev@nexia.az**

**Euro Audit MMC – “Nexia International”a üzv şirkət**
**World Business Centre 9-cu mərtəbə, S. Rəhimov 23**
**Bakı AZ1014, Azəbaycan**
**Tel: +994 12 597 30 44 | www.nexia.az**